


Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

# Abdulla Şaiqin yaradıcılığında Azərbaycançılıq, Turançılıq və İnsanlıq

**Faiq Ələkbərli**
**dosent, fəlsəfə üzrə fəlsəfə doktoru**

**III Yazı**

***Abdulla Şaiq yaradıcılığında Türk dili və Türk ədəbiyyatının inkişafı ilə yanaşı, Türk birliyinin təşəkkülü, Turançılıq ideyasının təbliğinə də mühüm yer vermişdir O, xüsusilə də cümhuriyyət dövründə qələmə aldığı "Marş", "Arazdan Turana", "İki mücahid", "Vətənin yanıq səsi", "Yeni ay doğarkən" və başqa şeirlərində türkçülüyü və turançılığı təbliğ etmişdir. Məsələn, A.Şaiq "Marş" şeirində yazırdı ki, Türk xalqları birləşməli, yenidən ünlə, zəfərlə, şanla Türk tarixini doldurmalı və düşmənlərinə öz yerini göstərməlidir:***

**Türk qafasında qorxu yuvalamaz, düşmənim!**
**Həp dəmirdən yapılmış ruhum, qəlbim, bədənim.**
**Süngümüzün ucundan damar qətrə-qətrə qan,**
**Hürriyyətdən, vətəndən ölüncə keçməm, düşman.**
**Dalğalanır üstümdə şanlı Turan bayrağı,**
**Alovlanır qəlbimdə "Ərgənəkon" ocağı.**
**Haydı, yola çıxalım, haqsızlığı yıxalım,**
**Turanda gün doğunca zülmətlə çarpışalım!**
**Arş irəli, irəlidə cənnət kibi cahan var.**
**Günəş orada həp doğar, səadət orada parlar!**
**Türk firqəsi "Müsavat".**
**Açalım quş tək qanad.**
**Sanlıb hürriyyətə,**
**Bulalım şanlı həyat! 1**

A.Şaiq "Arazdan Turana" şeirində isə Vətənin darda olduğunu və onu qurtaracaq Türk oğlunu gözlədiyini yazırdı. Onun fikrincə, Türk elinin arasına xainlər soxulmuş və bu eli parçalamaq istəyir:

**Nərdə o Türk nişanlım, o qoç igit, qəhrəman?**
**Yolunu pək özlədim, yol ver ona, Yaradan?**
**Yel atına binsin də, gəlsin səni qurtarsın!**
**Yağı olan bu xain başları qoparsın,**
**Şu sehirli tilsimi qırsın namus eşqinə.**
**Quruntulu bir kədər çökmüş Turan yurduna.**
**'Qızıl irmaq', 'Süd gölü'' bu anda qan köpürür,**
**Qoç igitlər Turanda bığ çeynəyib də durur! 2**

O, daha sonra yazırdı ki, Türk oğlu bu hayqırtını eşidib yardıma qoşur:

**'Quzğun dəniz'' bu qara xəbərləri dinlədi,**
**Yara almış bir arslan kimi kimi inlədi.**
**Basdı Kürü, Arazı dalğaların selinə,**
**Birdən-birə köpürdü, daşdı Turan elinə.**
**O dağ kibi yüksələn dalğaları yürüdü,**
**Yüz milyonluq Turanı başdan-başa bürüdü.**
**Hər kiçicik dalğasında bir ildırım patladı,**
**Almas kipriklərində birər şimşək oynadı.**
**Hər bir öksüz bucaqda qopdu yeni bir tufan,**
**Coşqun sellər qaldırdı əngəlləri aradan.**
**Artıq sehrli divlər yediyini həp qusdu,**
**Sonra Turan da susdu,**
**dəniz də, göy də susdu. 3**

Qeyd edək ki, Türk ruhlu Azərbaycan Cümhuriyyətinin yaranması ilə Şaiqin Turan sevdası daha da güclənmiş, xəyalən təsəvvür etdiyi Türk birliyinin gerçəkləşməsinə inamı artmışdır. Şaiq yazırdı:

**Mən hər zaman dənizlərin daşğın, çoşqun sularında,**
**Öyənirəm çarpışmağı yeni həyat yollarında.**
**Göstərdiyim hünər, qüvvət azmı şeydir? Sanma qolay,**
**İnan, qorxmam, dünya mənə qarşı çıxsa alay-alay.**
**Bilirəm ki, iradəm var,**
**Əzmim hər qüvvəti yıxar!**
**Mən əsəbi dalğayam ki, yüksəlirəm, bir dağ kimi,**
**Ən sarsılmaz qüvvətləri oynadıram yarpaq kimi.**
**Dalğalardan bac alıram, əzmim mənə baş əyəndə,**
**Martı kimi yüksəlirəm fırtınalar göbəyində. 4**

O, "İki mücahid" əsərində də Türk xalqlarının birliyindən, milli-mənəvi dəyərlərindən, cəngavərliyindən bəhs etmişdir. Şaiqə görə, türklər hər zaman milli törələrinə sahib çıxmış, heç bir zaman şərəfindən, qürurundan ödünc verməmişdir. Türkün yolu ya şanlı bir zəfər, ya da şərəfli bir ölüm olmuşdur. 5

Ancaq 27 aprel işğalından sonra bəzi mütəfəkkirlərimzi kimi zamanla Şaiqin türkçülüyə, turançılığa olan münasibəti də dəyişilmiş, hətta, bir çox hallarda tənqidi mövqe tutmağa başlamışdır. Məsələn, Şaiq Sovetlər dönəmində qələmə aldığı "Xatirələrim"də yazırdı ki, Əli bəy Hüseynzadə Bakıya gəldikdə "özü ilə bərabər, Azərbaycan xalqına xeyiri olmayan ziyanlı fikirlər, panislamizm, pantürkizm ideyaları, üstəlik xalqın anlamadığı, ərəb, fars kəlmə tərkibləri ilə dolu olan bir dil də gətirmişdir".6 O, daha sonra yazırdı: "Doğrudur, Ə.Hüseynzadə həmişə vətəndən, xalqdan danışırdı, ancaq onun əsərlərində, nə də hərəkətlərində Azərbaycan dilinə və Azərbaycan xalqına olan məhəbbətini görmədik". 7 Əlbəttə, Şaiqin bu fikirləri həqiqəti özündə əks etdirmir, daha çox dövrün şərtlərindən qaynaqlanırdı.

***Onun fikrincə, Ə.Hüseynzadə və onun tərəfdarları Azərbaycanda özlərinə yer edə bilmədikləri, yerli qabaqcıl ziyalılar tərəfindən ciddi müqavimətə rast gəldikləri üçün də bir-bir Türkiyəyə qayıtmağa başlayıblar. 8 Şaiq yazırdı: 'Füyuzat'da hürriyyət məsələləri sərvətdarların, varlıların mənafeyinə uyğun olaraq izah olunurdu. 'Molla Nəsrəddin'' məcmuəsində isə bu məsələnin həlli demokratik istiqamətdə idi''.9 Şübhəsiz, bu məsələlərdə Şaiq ifrata varırdı. Çünki 'Füyuzat'ın tutduğu yol, bəzi qüsurları nəzərə almasaq, daha çox milli-demokratik yol idi, nəinki 'Molla Nəsrəddin'in.Sovetlər Birliyi dövründə Şaiqin dünyagörüşünü təhlii edən prof. Midhət Ağamirov iddia edirdi ki, onun yaradıcılığının 27 aprel işğalınaqədərki dövrdə dini və milli təsirlər, ilahi qüvvəyə bel bağlaması həlledici, aparıcı istiqamət səviyyəsinə yüksəlməmişdir.*** Yəni bu o deməkdir ki, Şaiq milli-demokratik cəbhədə olsa da, ancaq sonuna qədər bu yolu davam etdirmnəyib. Ağamirov daha sonra yazırdı ki, Şaiqin meyil göstərdiyi milli-demokratik cərəyanın tərəfdarları "Həyat", "Füyuzat", "Kaspi", "İrşad" kimi milli qəzet-jurnalların ətrafında milli ideyaları təbliğ etdiyi halda, azərbaycanlı-türk marksistlər buna qarşı olmuşlar. Ağamirova görə, o zaman milli marksistləri belə bir həqiqəti əsas tutur və təbliğ edirdilər ki, cəmiyyətin üzvləri varlılarla yoxsullara, kapitalistlərlə fəhlələrə, mülkədarlarla yoxsul kəndlilərə bölünürlər. Guya, ilk dövrlərdə Şaiq bunu dərindən anlamamış, bütün millətlərin burjuaziyasının istismarçı və zalım olmasını, bütün millətlərdən olan proletarlar istismar etdiyini dərk etməmişdir.10 Ağamirovun fikrincə, bu baxımdan Şaiq öz yaradıcılığının ilk dövrlərində cəmiyyətin müxtəlif qütblərə bölünməsini, yəni burada varlılarla yoxsullar, əzənlərlə əzilənlər, zalımlarla məzlumların olmasını qismən anlamışdır.11





**_Türk ruhlu Azərbaycan Cümhuriyyətinin yaranması ilə Şaiqin Turan sevdası daha da güclənmiş, xəyalən təsəvvür etdiyi Türk birliyinin gerçəkləşməsinə inamı artmışdır_**

27 aprel faciəsindən sonra da milli-dini hisslərdən tamamilə qurtula bilməyən Şaiqin yavaş-yavaş marksizm-leninizm fəlsəfəsinə yaxınlışdığına deyən Ağamirov yazırdı ki, bu ikli mülahizələr onda bir müddət davam etmişdir. Belə ki, Ağamirova görə XX əsrin 1930-cu illərində də, Şaiq bir tərəfdən islam dininin tarixi irəliləmə üçün bir körpü rolunu oynadığna inanmış, digər tərəfdən bu dinin insanlara zorla, qılınc gücünə qəbul etdirildiyini də göstərmişdir.

Bizcə, o, Sovet Azərbaycanı dövründə yalnız İslam dinini deyil, Türk mədəniyyətini də qoruyub yaşatmağa çalışmışdır. Hər halda, onun "Nüşabə" pyesində (1945) ifadə etdiyi mülahizələri zahirən "sovet beynəlmiləlçiliyi"-nə bağlı olsa da, mahiyyət etibarilə Azərbaycan Türk mədəniyyəti ilə bağlı olmuşdur. Şaiq Nüşabənin dilindən yazırdı:

**Babalardan süzüldü saf qanımız,**
**Nə qədər var həyatımız, canımız.**
**Bizi qoynunda bəsləyən torpaq.**
**Düşmənə, bil ki, tapdaq olmayacaq!**
**Qəlbimizdir bölünməyən vətənim!12**

Beləliklə, Şaiqin dünyagörüşündə ilk növbədə, bəzən utopik, bəzən də real xüsusiyyət daşıyan insanlıq fəlsəfəsi (cəmiyyət və insan) mühüm yer tutmuşdur. Onun əsas istəyi dünyanın, cəmiyyətin və insanın bu günü və gələcəyini istər romantik, istərsə gerçək anlamda ideal bir şəkildə görməkdir. Özünün də yazdığı kimi bu "ideal"ı xəstə halından sağlam şəkilə salmaq üçün insanlığın daxilindəki şəri, zülmü, fəlakəti aradan qaldırmaq, onun yerinə isə səadət, vicdan, mərhəmət hisslərini gücləndirməkdir. Bu o anlama gəlir ki, insanlığın özü həm fərdi, həm də kollektiv anlamda ikiliyin bir mübarizəsi şəraitindədir. Çox maraqlıdır ki, əsasən insanın xəyallarındakı istəklər xeyirlə bağlıdırsa, ancaq real həyatdakı əməllərində daha çox şər özünü büruzə verir. Deməli, insanlıq üçün vacib olan "ideal"ı sağlam vəziyyətə gətirməkdir ki, bəşəriyyəti şərdən uzaqlaşdırsın.

***Şaiqin türkçülük, turançılıqla bağlı görüşlərinə gəlincə, onun bu məsələlərdə səmimi mövqe tutması təbiidir. Çünki Şaiq üçün türklük, turançılıq milli duyğuların tərcümanı olmaqla yanaşı, Türk xalqlarının ən azından milli-mədəni birliyinin ifadəsi idi. Eyni zamanda, burada önəmli olan Türkün özünə dönüşü və keçmiş əzəmətini bərpa edərək yenidən dirilişi idi. Doğrudur, Quzey Azərbaycan Sovet Rusiyası tərəfindən işğal olunduqdan sonra Şaiqin turançılıq məsələsində baxışları xeyli dərəcədə dəyişilmişdir. Belə ki, artıq Şaiq turançılıqdan çox "beynəlmiləlçi" ideyaları, xüsusilə də sinfi məsələni önə çəkirdi; məzlumların zalımlara qarşı mübarizə aparmasının əhəmiyyətindən söz açırdı. Ancaq bütün hallarda Şaiqin Türk dünyagörüşünə sahibliyi, Türk fəlsəfəsini yenidən ifadə etmək hissi hər zaman ön planda olmuşdur.***

*1 Şaiq Abdulla. Seçilmiş Əsərləri. Üç clddə. II cild. Bakı, AVRASİYA PRESS, 2005, s.52*
*2 Yenə orada, s.59*
*3 Yenə orada, s.61*
*4 Yenə orada, s.67*
*5 Yenə orada, s.50-51*
*6 Azərbaycan mətbuat tarixi antologiyası (2 cilddə 1 cild). Bakı, «Elm və təhsil», 2010, s.400*
*7 Yenə orada, s.401*
*8 Yenə orada, s.401*
*9 Yenə orada, s.405*
*10 Ağamirov M.M. Abdulla Şaiqin dünyagörüşü. Bakı, Maarif, 1982, s.60*
*11 Yenə orada, s.68*
*12 Şaiq Abdulla. Seçilmiş əsərləri. Üç cilddə. II cild. Bakı, AVRASİYA PRESS, 2005,, s.560*

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur***